*Tarix fakültəsi - 105*

**UOT 94(479.24); UOT 94**

**İQBAL AĞAYEV**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Univeristetinin dosenti*
*Asiya və Afrika ölkələri tarixi kafedrasının müdiri*
**igbal64@rambler.ru**

# "ASİYA VƏ AFRİKA ÖLKƏLƏRİ TARİXİ" KAFEDRASININ QISA TARİXİ

DOI: https://doi.org/10.36719/2708-065X/106/85-92

*Bakı Dövlət Universiteti 2024-cü il təqvimində 105 yaşını qeyd edir. Azərbaycan elminin flaqmanı, Şərqin ilk Avropa tipli Universiteti olan Bakı Dövlət Universiteti mövcud olduğu bir əsri aşan müddətdə elmin inkişafında əsas rol oynayır və müasir dövrün tələblərinə cavab verən kadrların yetişdirilməsində lider mövqeyindədir. Universitetin özü ilə həmyaşıd olan Tarix fakültəsi də bu inkişaf yolunu qarşısına məqsəd qoyaraq elmə və cəmiyyətə öz töhfəsini verməkdədir.Fakültə Dünya və Vətən tarixi üzrə geniş araşdırmalar apararaq tədris prosesində tələblərin dünyagörüşünün formalaşmasına xidmət edir. Tarix fakültəsinin tərkib hissəsi olan «Asiya və Afrika ölkələri tarixi» kafedrası Şərqdə baş verən prosesləri tədqiq etməklə müasir dövrün ən aktual məsələlərinə aydınlıq gətirir. Məqalədə bu kafedranın qısa tarixinin araşdırılmasına cəhd göstərilmişdir.*

*Acar sözlər:* Bakı Dövlət Universiteti, Müsəlman Şərqinin ümumi tarixi, Asılı və müstəmləkə ölkələrin tarixi, Yaxın və Orta Şərq xalqlarının tarixi, Asiya və Afrika ölkələri tarixi.

***Giriş.*** XI əsrdə Əbülhəsən Bəhmənyar, XIII əsrdə Nəsrəddin Tusi ilə dünya arenasına çıxan elmimiz XX əsrin ikinci onilliyində intibah dövrünə qədəm qoydu. Bu, müsəlman Şərqində ilk Avropa tipli universitet olan Bakı Dövlət Universitetinin yaranışı ilə bağlıdır. 2024-cü il təqvimində 105 yaşını qeyd edən, onunla həmyaşıd olan Tarix fakültəsi də 105 yaşına daxil oldu. Bir əsri ötən yaşı ilə tarix fakültəsi Azərbaycan elminə, mədəniyyətinə və siyasətinə mükəmməl töhfələr vermişdir. Təkcə Tarix fakültəsinin məzunu olmuş Azərbaycanımızın xilaskarı Heydər Əliyevin adını çəkmək kifayətdir. 1919-cu ildə 605 nəfər tələbə ilə fəaliyyətə başlayan tarix fakültəsi daha sonra Azərbaycan xalqının milli düşüncəsinin, demokratik ideallarının mərkəzi funksiyasını daşıdı. 1922-ci ildə fakültədə 8 kafedra fəaliyyət göstərirdi. Onlardan biri "Müsəlman Şərqinin ümumi tarixi" kafedrası idi ki, o bu gün "Asiya və Afrika ölkələri tarixi" kafedrası adlanır. Bu gün bu kafedra Yaxın və Orta Şərq, Cənubi, Şərqi və Cənubi-Şərqi Asiyanın, o cümlədən, Afrikada baş verən siyasi, sosial-iqtisadi , mədəni hadisələri və bu hadisələrin Vətənimizə təsirini tədqiq etməklə tarix elminə öz töhfəsini verir. Bu yolda Bakı Dövlət Universiteti bütün alimləri Azərbaycan elminin, mədəniyyətinin inkişafı yolunda birləşdirdi. Tarixə səyahət etdiyimiz zaman Azərbaycan elminin flaqmanının hansı çətinliklərlə yarandığının şahidi olub və bir daha necə məsuliyyətli yola çıxdığımıza əmin oluruq.

***Bakı Dövlət Universitetinin yaranması.*** Şərqdə ilk demokratik respublikasını yaradan xalq, eyni zamanda Şərqin ilk Avropa tipli universitetini formalaşdırdı. Təhsilə, elmə böyük dəyər verən Azərbaycan ziyalıları taleyin "Qafqaza cərrahi yardım" üçün gətirdiyi V.İ.Razumovskiyə qucaq açdı.

1897-ci ilin sentyabr ayında Kiyev və Varşavada politexnikum açıldıqdan sonra, belə bir təhsil müəssisəsinin Zaqafqaziyada da açılması sahəsində danışıqlar başlanmışdı. XX əsrin əvvəllərində bu

iş davam etdirilsə də, erməni quldurlarının Qafqazda törətdiyi cinayətlər bu işin həyata keçməsinə mane olurdu.

1917-ci il, Qafqaz ... Müharibə yeni bitsə də hələ burada hərbiçilərin bir qismi qalmaqda idi. V.İ.Razumovski burada Ali Qadın Kurslarının nəzdində tibb fakültəsinin yaradılması layihəsinə dəvət olunur. Ancaq həmin ilin yanvar ayında hadisələr başqa məcrada davam edir. Zaqafqaziya Respublikası Rusiyadan ayrılır. Artıq gürcü, erməni və türklərin özlərinin birgə hökumətləri var.

V.İ.Razumovski Tiflisdə Rus Universitetinin açılması ilə bağlı hökumətə müraciət etdi. Bu hökumətin Xalq Maarif Naziri Bakılı Fətəlixan Xoyski edilən müraciəti sonuna qədər dinlədi, bu işə öz rəğbətini bildirdi və əlavə etdi: “Niyə bəs Tiflisdə? Tiflisdə politexnikum var, indi Gürcü Universiteti... Bəlkə, universiteti Bakıda təşkil etmək daha məqsədyönlüdür” (2, s.10).

Bu vaxt isə Qafqazda hadisələr başgicəlləndirici sürətlə dəyişir. Bu layihəyə Zaqafqaziya Respublikası hökumətində baxılmır. Çünki, o çox qısa zamanda fəaliyyət göstərdi və üç respublikaya parçalandı.

Tiflisdə təşkil edilən yeni hökumət artıq Rus universiteti üçün heç bir səy göstərmirdi. O, bütün diqqətini Gürcüstan Universitetinə yönəltmişdi. Ancaq V.I.Razumovski və komandası hələ də inamlarını itirmədən Ali Qadınlar Kursunda islahat aparıb onu universitetə çevirdilər. Bunula da əsas çətinlik mərhələsi başladı. Universitet maddi çətinliklə üzləşdi. Tiflis Şəhər Duması çox az miqdarda maddi yardım göstərdi. Tələbələrdən yığılan yüksək ödəniş belə Universitetin idarə olunmasına kifayət etmirdi. Artıq Razumovski başa düşürdü ki, Rus Universiteti Gürcü Universiteti ilə bir yerdə qala bilməz. Yekaterinodor və İrəvanla danışıqlara başladı. Bu vaxt Həmid bəy Şaxtaxtinskinin universitetin Bakıya köçürülməsi təklifi ciddi müzakirəyə səbəb oldu. Yaxşı bina, maddi təminat və s. kimi ehtiyaclar bütün müəllimlərin əhval-ruhiyyəsini Bakıya köçməyə kökləmişdi. Bu yolda fikirlərdə toqquşmalar, ayrılıqlar yaranırdı. Həkimlər və tarixçi- filoloqlar Bakıya köçməyin tərəfdarı idi. Təbiətçilər isə ya Şimali Qafqaza üz tutmaq ya da Tiflisdə qalmağı təklif edirdi. Razumovskinin xatirələrində bir maraqlı məqam diqqəti çəkir: Universitetin İrəvana köçürülməsi ilə bağlı ermənilərin canfəşanlıq etməsi. Hələ Tiflisdə olarkən bir neçə erməni burjua millətçisi Razumovski ilə görüşüb və israrla universitetin Bakıda deyil, məhz İrəvanda təşkili barədə danışıqlar aparırlar. Amma professor bu təklifi rədd edir. Və rədd etməsini də belə əsaslandırır ki, hazırda İrəvanda universitet təşkil etmək üçün ibtidai şərait belə yoxdur. Bu hələ harasıdır, Tiflisdə onunla birgə çalışan erməni professor-müəllim heyəti də İrəvana getməyə razı olmur. Razumovski xatirələrində qeyd edir: “Aclığın hökm sürdüyü İrəvanda universitetin yaranması üçün əlverişli şərait yox idi. Orada fakültə təşkil etmək çətin idi. Çünki, bunun üçün yaxşı kliniki müəssisə tələb olunurdu” (2).

Razumovskinin qeyd etdiyinə əsasən, ümumiyyətlə, müəllimlərin əhval-ruhiyyəsi Bakıya köçməyə köklənmişdi. Xüsusən tarixçi-filoloqlar Tiflisdə qalmağın mənasız olduğunu başa düşürdülər. O tarixçilər ki, sonradan tibb fakültəsi ilə yanaşı universitetin ikinci fakültəsinin əsasını qoydular.

Özü cərrah olsa da, Razumovski tarix-filologiya fakültəsinin açılmasına böyük önəm verirdi. Bu məqsədlə o, inandığı şəxslərdən olan L.A.İşkovu dərslik təşkili üçün Tiflisə göndərir. İşkov Tiflis Universitetinin kitabxanasından götürdüyü yüzlərlə dərsliklə qayıdır.

1919-cu ilin aprelin sonu... V.I Razumovski Azərbaycan hökumətindən Bakı Universitetinin yaradılmasını öz üzərinə götürməyi və təşkilat komissiyasının yaradılması barədə təklif alır. Ləngimədən cavab vermək lazım idi. V.İ.Razumovski həmkarlar ilə danışıqlar aparıb Zaqafqaziya universitetinin rektorluğundan imtina edib Bakıya teleqrafla öz razılığını bildirdi. V.I.Razumovski dərhal komissiyanın təşkilinə başlayır. Komissiya üzvlüyünə tarixçi-publisist N.A.Dubrovskini və L.A.İşkovu, həkimlərdən Levin və Sitoviçi dəvət edir.

Artıq elmi personalın Bakıya və Yekaterinodora köçməsi məsələsi həll olunandan sonra Gürcüstan universitetinin taleyi ilə bağlı narahatlıq biruzə verdi. Çünki burada çalışan gürcü müəllimlərlə yanaşı rus müəllimlər də üstünlük təşkil edirdi. Gürcüstan Xalq Maarif Naziri Ramişvili V.İ.Razumovskinin qalması üçün razı salmağa çalışsa da, o, qeyd edirdi ki, Gürcüstanın öz xadimləri formalaşana qədər siz bizə lazımsınız. Bu etiraf V.İ.Razumovskiyə bəs edir ki, universitet üçün ən ideal yer Bakıdır (1).

Bakıya gəldikdən sonra universitet binası, tələbə yataqxanası, laboratoriyaların qurulması üçün komissiya öz fəaliyyətinə başladı. Bakı Universitinin açılması çox mürəkkəb situasiyalarla qarşılaşdı.

Hazırlanan layihələr parlamentə təqdim olunduqda əsas çətinlik burada yaranır. Çünki, Parlamentdə Universitetin açılmasına dair əks fikirlər cərəyan etməyə başlayır. Onlar göstərirlər ki, yeni universitet açmaqdansa, tələbələri Qərbi Avropaya təhsil almağa göndərmək daha məqsədəuyğundur. Onların arqumenti reallığı əks etdirmirdi. Çünki, hər tələbə xaricə gedə bilmə şəraitinə sahib deyildi. Xüsusilə qızlarımız. Vətənimizdə maddi-texniki və milli kadr sahəsində çatışmazlıqların mövcud olduğu bir şəraitdə belə fikirlərin meydana gəlməsi müstəqilliyimizə göz tikənlərin məkrli əməlindən başqa bir şey deyildi.

Nəhayət bu iş Parlamentin ümumi yığıncağına təqdim olunur. Böyük Parlament günü... Kütlənin qeyri-adi izdihamı. Bakı ziyalılarının əksəriyyəti buradadır. Xalq Maarif Naziri və M.Ə.Rəzulzadənin çıxışı V.I.Razumovskini heyran edir. Çıxışlar rus və azərbaycan dillərində səslənirdi. V.I.Razumovski və onun tərəfdarları olan ziyalılarımızın çıxışları parlamenti qane etdi. 1919-cu il sentyabrın 1-i, Parlamentdə 3-cü sonuncu oxunuşda universitetin yaradılmasının təsdiq olunması günü Bakı üçün əlamətdar bir gün idi. Universitet haqqında qanun kütlənin alqış sədaları altında qəbul edildi. Razumovki bu barədə yazır: "... Azərbaycan öz maarif ocağına sahib oldu. Türk xalqının tarixinə yeni , parlaq səhifə əlavə olundu. Avropanın, Asiyanın qovşağında yeni məşəl (zəka çırağı) alovlandı. Bu böyük, tarixi hadisənin iştirakçıları kimi özümüzü xoşbəxt bilirdik. Qarşılıqlı təbriklər az olmadı. Hamıda bir növ, bayram əhval-ruhiyyəsi var idi. Belə günlər heç vaxt unudulmur!" (2, s.15). Qanun qəbul olundu. Nizamnamə hazırlandı. Rektor və dekanlar təyin olundu. Artıq məşğələlərə başlamaq lazım idi. Bu vaxt qarşıya həll olunması vacib olan iki əsas məsələ çıxır. Birincisi, müəllim heyətinin sayının az olması, ikincisi kafedraların və laboratoriyaların kifayət qədər təchiz olunmaması idi.

Müəllim məsələsinin həlli üçün V.I.Razumovski, N.A.Dubrovski, B.A.Finkelşteyn Şimali Qafqaz və Qərbi Avropaya üz tuturlar. Səyahətin ağırlığı, yollarda yaranan problemlər və "zəka çırağını" işıqlandırmaq üçün bütün bunlara dözən elm xadimləri... Bu alimlərin ruhu qarşısında bir dəfə yox, min dəfələrlə baş əyməliyik. Bu alimlərin "Bəşər sivilizasiyasının məhək daşı" olan "elm" ( Miletli Fales) yolunda Deogenlər kimi "gündüz çıraqla", gecə "ürəklərinin işığı" ilə uzaq ellərdə alim axtarışına, Hz. Məhəmmədin "Elm uzaq Çində də olsa gedin gətirin" nəsihətinin yoluna çıxmışdılar. Getdilər, gətirdilər...

Nəhayət ezamiyyət bitir. Bir sıra görkəmli elm xadimlərindən Bakı Universitetində tədris fəaliyyəti üçün razılıq alınır. 1919-cu ilin oktyabrın ikinci yarısında V.İ.Razumovski və N.A. Dubrovski Bakıda görüşürlər. Uzun müddət şəhərdə bu şəxsləri heç kim görmədiyinə görə universitet əleyhdarları olan qruplar belə şayə yaymışdılar ki, guya onlar Qafqazdan qaçıblar. Buna görə də V.İ.Razumovski bildirir ki, dərhal Universiteti açmaq lazımdır. Qərarlaşdırılır ki, noyabrın 15-i, şənbə günü eyni anda V.İ.Razumovski və N.A. Dubrovski mühazirə oxuyacaqlar, biri tibb və digəri tarix fakültəsində. İlk dərsin niyə məhz şənbə günü olması ilə bağlı Razumovski qeydlərində heç bir söz demir. Görünür, onun fikirlərinə düşmən olan cəbhəni susdurmaq üçün dərhal fəaliyyətə keçdiyi üçün belə bir gün tarixə düşür. N.A.Dubrovski Ümumi tarix üzrə mühazirə oxudu. Yeni, geniş auditoriya dinləyici ilə tamam dolmuşdu. Hətta tələbələrlə yanaşı ziyalıların əksəriyyəti, parlament üzvləri, Hökümət Şurasından şəxslər və s. dinləyici qismində iştirak edirdilər. İlk və sonrakı mühazirələr bir daha Bakı cəmiyyətinə göstərdi ki, o, bu universitetlə hansı mədəni sərvəti əxz edir.

Beləliklə, Qafqaza cərrahi yardıma gələn V.İ.Razumovski özü ilə "zəka çırağı" nın işıqlanması üçün alov şövqü də gətirdi. Onun Qafqaza gələrkən yazmağa başladığı "Qafqazda cərrahi əməliyyat yardımı" adlı məqaləsi də məhz Bakıda çap olundu. Bununla da sanki, V.İ.Razumovski öz missiyasını tamamladı. Alim vicdanı ilə V.Razumovski və həmkarları Azərbaycanda dünyəvi elminin ilk çırağını yandırdı.

***Bakı Dövlət Universiteti Sovet işğalından sonra.*** 1920-ci ilin aprel ayının 28-də Şərqin ilk qaranquşu Azərbaycan Xalq Cümhuriyyəti şimaldan əsən sərt küləyə məruz qalır və bolşeviklər hakimiyyəti ələ keçirirlər. Hər bir xüsusi hadisə ümumi hadisələrin tərkib hissəsidir. Bu baxımdan ölkədə baş verən hakimiyyət dəyişikliyi Bakı Dövlət Universitetinin strukturunda da dəyişikliyə səbəb oldu.

1920-ci ilin aprelindən sonra universitetin yeni nizamnaməsinin hazırlanması başlandı. Bu nizamnamə universitet həyatındakı dəyişiklikləri əks etdirməli idi. Və təcili olaraq "Bakı Dövlət Universiteti haqqında əsasnamə" hazırlandı. Artıq 1920-ci il oktyabr 16-da tarix-filologiya fakültəsinin 3 şö-

bəsi mövcud idi: tarix, dil, şərq şöbələri. Kafedramızın tarixinin bir qismi məhz şərq şöbəsi ilə bağlı olmuşdur. Məlum olduğu kimi tarix-filologiya fakültəsinin şərq şöbəsi universitet yaranan gündən mövcud idi. 1921-ci il aprelin 19-da tarix-filologiya fakültəsində professor P.K.Juzenin şərq şöbəsi haqqında məruzəsi dinlənilmişdi. Qəbul olunmuş qərarda şöbənin Şərq fakültəsinə çevirmək zəruri hesab edildi.

1922-ci il martın 30-da universitet şurası Şərq fakültəsinin yaradılmasını təsdiq etdi. Aprelin 12-də görkəmli şərqşünas, professor P.K.Juze fakültənin dekanı seçildi. Şərq fakültəsinin meydana gəlməsi ilə regionun sosial-iqtisadi, siyasi, mədəni tədqiqatına başlanılır. 1922-ci il aprelin 26-sında fakültə Universitet şurasına bu təklifi verməyi qərara aldı: "kafedraların türkologiya, iranşünaslıq, ərəbşünaslıq, müsəlman Şərqinin tarixi, islamşünaslıq üzrə məşğələlərinə professorlar, dosentlər cəlb olunmasına kömək göstərilsin". 1922-ci il mayın 14-də fakültə yığıncağı Şərq fakültəsinin təşkil edilməsinə dair komissiyanın qeydini təsdiq etdi. Alimlərin fikri belə idi: Şərq fakültəsinin açılması Yaxın və Orta Şərqin hüdudunda yerləşən, tarixən Volqaboyu xalqları ilə bağlı olan Azərbaycanın son dərəcə uğurlu mövqeyindən irəli gəlmişdir (4).

P.K.Juze yazırdı: "SSRİ ilə Yaxın Şərqin kəsişməsində yerləşən şərqşünaslıq bu ölkələrə mədəniyyət və sosial islahatlar ötürücüsü və onlar üçün yüksək savadlı işçilərin mənbəyi rolunu oynamalıdır. Əgər Şərq fakültəsi Bakıda, Azərbaycan Dövlət Universitetində qalsa və həm mərkəzdən, həm də yerli hakimiyyət orqanlarından diqqət görsə, bütün bu vəzifələri yerinə yetirə bilər" (4). Professorun çıxışından da göründüyü kimi, Şərqin öyrənilməsi mərkəzin ideologiyasının yayılmasında böyük əhəmiyyətə malik olacaqdı. Beləliklə, Şərq fakültəsində "Müsəlman Şərqinin ümumi tarixi" adı ilə kafedramızın əsası qoyulmuş oldu. 1922-ci ildə "Müsəlman Şərqinin ümumi tarixi" kafedrasının təsis edilməsi bolşeviklər üçün böyük əhəmiyyəti olan Şərqi və Azərbaycanı öyrənməkdə çox vacib idi.

Struktur dəyişikliyi tarix-filologiya fakültəsindən də yan keçmədi. 1923-cü il fevralın 7-də bu fakültənin iclasında onun ictimai elmlər fakültəsinə çevrilməsi məsələsinə baxılmışdı. Nəticədə aprelin 19-da tarix-filologiya fakültəsi ictimai elmlər fakültəsinə çevrilmişdi.

1926-cı ildə ali təhsil məktəblərinin yenidən təşkil olunması ilə bağlı əsasnamə qəbul edilir. Bu əsasnaməyə görə ictimai-tarix və riyaziyyat-təbiət şöbələri olan pedaqoji fakültə yaradılır. "Müsəlman Şərqinin ümumi tarixi" kafedrası "Yaxın Şərq tarixi" adı ilə bu fakültədə təşkil olunur. Kafedra müdiri vəzifəsi boş qaldığına görə dərsləri P.K.Juze, Ə.Qubaydullin və A.S.Bukşpan aparırdı.

1927-ci ildə başqa bir məsələ qarşıya qoyulur. Universitetdə həm Şərq fakültəsində, həm də pedaqoji fakültədə müəllimlər hazırlanırdı. Hər iki fakültənin əsas fəaliyyət istiqamətləri müəyyən olunması üçün 1928-ci ildə Şərq fakültəsinin yenidən təşkil olunması ilə bağlı məsələ qaldırıldı. Keçirilən müşavirədə Şərq fakültəsinin Pedaqoji fakültəyə birləşdirilməsi qərarı qəbul olunur. A.S. Bukşpandan başqa digərləri bu fikri dəstəkləmişdi. A.S. Bukşpan bu addımın siyasi səhv olduğunu vurğulayırdı. 1928-ci il noyabrın 12-də AK(b)P MK Rəyasət Heyəti "Şərq fakültəsinin və Pedaqoji fakültənin yenidən təşkili haqqında" məsələni müzakirə edərək, 1929-1930-cu dərs ilində Şərq fakültəsini və pedaqoji fakültəni birləşdirmək barəsində qərar çıxardı. Ümumiyyətlə, 20-ci illərin ortalarıda baş vermiş bu hadisələr BDU-da milli şüurun oyanışı fonunda cərəyan edirdi. Mərkəz hadisələri qabaqlamaq məqsədilə bir sıra əməli addımlar atdı. 1927-ci ildə ali təhsil müəssisələrinin azərbaycanlılaşdırılması üçün plan hazırlandı. Tədrisin rus dilində aparılmasına qarşı həm cəmiyyətdə, həm də universitetdə etirazlar artırdı. Bu dövrdə Azərbaycanın milli mənafeyi uğrunda mübarizə aparan qüvvələrin səyi nəticəsində bütövlükdə universitet özünün əsl simasını qoruyub saxlaya bildi. Həmin illərdə universitetin elmi və siyasi həyatında ən mühüm hadisə onun türkləşdirilməsi probleminin irəli sürülməsi olmuşdur. Bu barədə 3 aprel 1927-ci ildə qəbul edilmiş AK(b)P MK Rəyasət Heyətinin "Azərbaycan Dövlət Universiteti haqqında əməli təklifləri" adlı sənəddə göstəriş verilmişdi.

Lakin, Universitetdə bu proses birmənalı qarşılanmır. Digər millətlərdən olan professor-müəllim heyəti bunu öz mənafeyinə təhlükə kimi qarşılayaraq, türk millətinin intellektual səviyyəsinin aşağı olması iddiası ilə çıxış edir. Lakin, türkləşdirmə siyasəti ehtiyatla, digər millətlərdən olanları qorxutmadan həyata keçirilirdi. Bundan əsas məqsəd azərbaycanlı tələbələrin, akademik işçilərin və Azərbaycan dili bilənlərin sayını artırmaq idi. Bu isə öz növbəsində Azərbaycan dilində mühazirələrin, məşğələlərin artmasına gətirəcəkdi. Bu dövrdə Azərbaycanın tanınmış ziyalılarından professorlar

S.Kazımov, H.Şaxtaxtinski, M.Ibrahimov, M.R.Əfəndiyev, S.Hüseynov, M.K.Ələkbərli, T.Şahbazi, Ə.Haqverdiyev, B.Talıblı, F.Rzabəyli, M.Topçubaçov, A.Hacıyev, A.Talışinski və başqaları universitetdə işə götürülmüşdülər. Məhz bu cəsarətli addımlar sayəsində universitetdə azərbaycanlı tələbələrin sayı artmışdı. 1926-cı ildə ilk azərbaycanlı rektor - Tağı Şahbazinin təyin olunması bu məsələyə güclü təsir göstərən amillərdən biri idi. Lakin bütün bu addımlar bu dövrdən sonra yüzlərlə professora, müəllimə, işçi və tələbəyə "xalq düşməni", "türkçü", "panislamçı" damğaları vurdu.

1930-cu il mayın 5-də Xalq Komissarları Sovetinin (XKS) iclasında "Ali məktəblərin və texnikumların yenidən təşkil edilməsi və onların təsərrüfat orqanlarına təhkim edilməsi barəsində" qərar qəbul edilmiş və elə həmin gün XKS-nin sədri D.Bünyadzadə bu qərarı təsdiq etmişdi. Nəticədə universitet bir neçə müstəqil instituta ayrıldı. Bununla da universitetin fəaliyyəti bir müddət dayandırılmış oldu (6). Bu dövrdə "Müsəlman Şərqinin ümumi tarixi" adlanan kafedramız "Aıslı və müstəmləkə ölkələrin tarixi " adı ilə fəaliyyət göstərirdi. Bu dövrdə Yaxın Şərqdə ingilis və fransızlar "özünü idarə edə bilməyən" ərəb dünyasını "mandat sistemi" adı altında idarə edirdi. Kafedranın əməkdaşları bu müstəmləkələrin, asılı dövlətlərin daxili və xarici siyasətini tədqiq edirdi. Bu isə mərkəzə lazım idi.

Çox keçmədi aydın oldu ki, Bakı Universitetinin ləğv edilməsi bir sıra texniki ali məktəbləri daha dar ixtisaslı mütəxəssislər hazırlayan institutlara ayırmaq ideyasının düşünülmədən universitetlərə də şamil edilməsinin nəticəsidir. Bir qədər sonra Stalin inzibatçıları başa düşürlər ki, yüksək dərəcəli mütəxəssislər və elmi işçilər hazırlamaq üçün ölkəyə inkişaf etmiş təbiət və humanitar bölmələri olan universitet lazımdır. Bakı Dövlət Universiteti 1934-cü ildə yenidən bərpa olunur və milli şüurun, düşüncənin mərkəzi kimi yenidən fəaliyyətə başlayır. Bərpa olunduğu dövrdə 5 fakültə fəaliyyət göstərirdi: fizika-riyaziyyat, kimya, biologiya, tarix və ədəbiyyat-dilçilik fakültəsi. Kafedralar yenidən təşkil olunmağa başladı. Bu dövrdə "Yaxın Şərq tarixi" kafedrası "Asılı və müstəmləkə ölkələrin tarixi" adlandı. Kafedranın müdiri A.S.Bukşpan idi.

1936-cı ildə SSRİ Konstitusiyasının qəbul edilməsi ilə vəziyyət dəyişir. Orada qeyd edilirdi ki, artıq Sovet İttifaqında sosializm tam qələbə çalmışdır. Buna görə də Sovetlər məkanında yaşayan xalqlar bir-birinə yaxınlaşıb qovuşmalıdırlar. Bu Konstitusiyaya uyğun 1937-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edildi. Bununla da milli düşüncə sıxışdırılmağa, milliliyi xatırladan hər şeyin məhv edilməsinə başlandı.

Milli düşüncənin sıxışdırılması istiqamətində atılan addımlardan birincisi rus dilinin tətbiqinin genişləndirilməsi oldu. Bu vaxt Bakı Dövlət Universitetində tələbələr və müəllim heyəti arasında etirazlar baş verirdi. Lakin ölkədə meydana gələn paradoksal vəziyyət belə idi ki, rus dilində tədrisin vacibliyi ilə bağlı əmr verən Mərkəzi Komitə bir müddət sonra bu əmrin icraçılarını "millətçiliyi alovlandırmaq" adı ilə həbs edib güllələdi. 1935-1937-ci illərdə Universitetin rektoru olmuş Balabəy Həsənbəyov da bu cür damğa ilə həbs olundu. Azərbaycanın minlərlə ziyalıları, elm , mədəniyyət, incəsənət xadimləri repressiyaya məruz qaldı. Bakı Dövlət Universitetində ən çox repressiyaya məruz qalan fakültə məhz tarix fakültəsi olmuşdur. Bu fakültənin dekanı B.N.Tixomirovla yanaşı dekan müavinləri dosent B.Əsgərov və dosent H.Biləndərli, "SSRİ xalqları tarixi" kafedrasının müdiri, professor Ə.Qubaydullin, "Asılı və müstəmləkə ölkələrin tarixi" kafedrasının müdiri, professor A.S.Bukşpan və digərləri həbs edilərək güllələndi. A.S. Bukşpan "Trotskiçi", "əksinqilabçı", "terrorçu" adlandırılaraq həbs olunur. Kafedra "əksinqilabçı" "terrorçu" mərkəzidir düşüncəsi ilə ləğv edilir və "Ümumi tarix" kafedrasına birləşdirilir. Lakin, 1938-ci ildə "Ümumi tarix" kafedrası bir neçə hissəyə bölünür və "Asılı və müstəmləkə ölkələrin tarixi" kafedrası yenidən müstəqil olur.

1941-ci il, iyunun 22-si... SSRİ miqyasında həyəcan təbili çalındı. SSRİ alman qoşunlarının hücumlarına məruz qaldı. Tariximizə "Böyük Vətən" müharibəsi kimi daxil olmuş bu müharibə bəşərin qanlı vuruşmalar tarixinə öz miqyasına görə misli-bərabəri olmayan müharibə kimi daxil oldu. Alman qoşunlarının basqını haqqında SSRİ hökumətinin məlumatından 2 saat sonra universitetdə keçirilən mitinqdə professor-müəllim heyətinin, tələbələrin - bütün universitet kollektivinin nümayəndələri qəzəb və hiddətini bildirib, vətənpərvərlik hislərini ifadə etdilər. 1941-ci il iyul ayının 2-də "Bakinski raboçi" qəzetində Azərbaycan alimlərinin belə bir müraciəti dərc olunur: "...Bu həlledici anda, Sovet İttifaqı azadlıq və mədəniyyətin çox böyük nailiyyətlərini müdafiə etdiyi bir vaxtda sovet elminin bütün gücü düşmənə qarşı yönəlməlidir..."(5).

Cəmiyyətin əsas ideologiya aparatı olan universitetlərdə tələbələr faşizmə qarşı mübarizəyə, birliyə çağıran çıxışlar etdi. Mərkəz universitetlərdə texniki və təbiət elmləri ilə yanaşı ictimai elmlərə də xüsusi diqqət ayırırdı. Tədris proqramlarında vətənpərvərlik ideyaları təbliğ olunmağa başladı. Bunun məntiqi nəticəsi kimi Moskva Tarix fakültəsində "Azərbaycan tarixi" kafedrasının yaradılmasına icazə verdi. Qələbə ərəfəsində SSRİ-nin Şərq ölkələrində nüfuzunun artması ilə əlaqədar olaraq Şərqin tarixinə, mədəniyyətinə maraq daha da artırdı. Nəticədə 1944-cü il yanvarın 3-də Respublika XKS və AK(b)P MK "S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində Şərq xalqları tarixinin və Şərq dillərinin öyrənilməsi tədbirləri haqqında" qərar qəbul etdilər. Rektora bir vəzifə olaraq tapşırıldı ki, Moskva, Leninqrad və başqa şəhərlərin ali məktəbləri ilə, habelə Yaxın Şərq ölkələrini öyrənən elmi-tədqiqat idarələri ilə əlaqə yaratsın, istər daimi işləmək, istərsə də mühazirələr oxumaq, məsləhət saatları keçirmək və s. üçün mütəxəssislər dəvət etsinlər. Nəticədə, 1946-cı ilə qədər tarix fakültəsində fəaliyyət göstərən kafedra daha sonra Şərq fakültəsinin bərpa olunması ilə onun tərkibində "Yaxın Şərq xalqlarının tarixi" adı ilə fəaliyyətini davam etdirməyə başladı.

1950-ci ildə Şərq fakültəsi fəaliyyətini dayandırır. Ancaq bu dövr Yaxın Şərq ölkələri ilə əlaqələrin gücləndiyi bir dövr idi. Regionun siyasi, sosial-iqtisadi öyrənilməsi dayandırıla bilməzdi.

1953-cü il 5 Mart... SSRİ-nin tarixində yeni səhifənin açıldığı tarix. Həmin tarixdə SSRİ rəhbəri İ.Stalin vəfat edir. Bundan sonra daxili siyasətdə yumşalma başlayır. Bu günə qədər günahsız yerə həbs olunan, güllələnən repressiya qurbanlarına bəraət verilir. Məhz bundan sonra Tarix fakültəsinin tərkibində kafedramız "Yaxın və Orta Şərq xalqları tarixi" adı ilə bərpa olundu. 1960-cı ildə o, yenidən "Ümumi tarix" kafedrasına birləşsə də, 1965-ci ildən bu günkü adı ilə, yəni "Asiya və Afrika ölkələri tarixi" kafedrası adı ilə uzunmüddətli fəaliyyətə başlayır. Müxtəlif vaxtlarda kafedraya dos. Əkbər Dadaşlı, dos. Qənbər Hüseynov, prof. Zakir Abdullayev rəhbərlik etmişdir. Adı çəkilən alimlər və onların rəhbərliyi altında kafedra əməkdaşları Yaxın və Orta Şərqin bir sıra dövlətlərinin tarixinə dair araşdırmalar aparmışlar.

Müstəqilliyimiz bərpa edildikdən sonra Bakı Dövlət Universiteti dövlətimizin inkşafı yolunda elmi-pedaqoji fəaliyyətini davam etdirdi. 1992-ci ildən 2013-cü ilə qədər kafedraya prof. M.Sofiyev, 2013-2015-ci illərdə prof. Sani Hacıyev rəhbərlik etmişdir. 2015-ci ildə hal hazıra qədər dosent İqbal Ağayev kafedraya rəhbərlik edir.

Hazırda kafedrada professor Sani Hacıyev, dosentlər Gülxanım Qarayeva, Aida Bağırova, Atamoğlan Məmmədli, Qismət Davudov, Kəmalə Sofiyeva, Günel Əliyeva-Məmmədova, baş müəllimlər – t.ü.f.d. Gülnarə Məmmədzadə, İsrail Əmirov və tədris köməkçi heyət üzvləri - Yeganə Abdullayeva, Günel Cəfərova çalışır (Kafedra haqqında geniş məlumat üçün Bax: 7).




Aylar ötür, illər keçir. BDU ilə az qala həmyaşıd olan fakültə və kafedramız onun özü kimi ağır və keşməkeşli yol keçsə də, bu günədək varlığını saxlayır və dövlətimiz üçün ixtisaslı kadrlar yetişdirmək kimi müqəddəs vəzifəsini uğurla yerinə yetirir. İnanırıq ki, hələ bundan sonra da "Asiya və Afrika

ölkələri tarixi" kafedrası bu vəzifəni daha uğurla yerinə yetirəcək və milli və mədəni dəyərlərə söykənən, hərtərəfli inkişaf etmiş kadrların hazırlanmasına öz töhfəsini verəcək.

***Nəticə.*** Bu gün islahatlar dövrünü yaşayan Universitetimiz dünya reytinqində həndəsi silsilə ilə irəliləyişini davam etdirir. Bakı Dövlət Universitetinin rektoru Elçin Babayevin təbirincə desək, "möhtərəm Prezidentimizin diqqət və qayğısı ilə əhatələnən 105 yaşlı BDU... beynəlxalq təcrübədən, dünya elminin nailiyyətlərindən faydalanaraq doğma universitetimiz vətənimizin, dövlətimizin inkişafı və çiçəklənməsi yolunda kadrlar hazırlamaq kimi müqəddəs missiyasını uğurla davam etdirəcək" (8). Tam əminik ki, Asiya və Afrika ölkələri tarixi kafedrası daim yüksələn xətlə davam edən bu inkişafa da öz töhfəsini verəcəkdir.

ƏDƏBİYYAT

1. Макавельский А.О. Азербайджанский государственный университет им. Ленина. Первое десятилетие 1919-1929. Баку, Азернешр, 1930, 150 с.
2. Разумовский Н.И., Макавельский А.О. Основание Университета в город Баку. Bakı «Nurlar» 2014, 112 с.
3. Феофанов.Ю. Возвращение к истокам // Журнал «Знамя», 1989, 2 Февраль, с.138-157.
4. Юбилей Университской ячейки / Бакинский рабочий, 15 января, 1923, с.5.
5. Десять лет Азербайджанский Государственный Университет имени Ленина / Бакинский рабочий, 1930 г. 12 января 3 с.
6. Əmrahov Z., İsmayılov S. Bakı Dövlət Universitetinin tarixi. Bakı, "Elm və təhsil", 2009, 696s.
7. Asiya və Afrika ölkələri tarixi kafedrası. - https://history.bdu.info.az/kafedralar/asiya-ve-afrika-olkeleri-tarixi [baxılmışdır: 13.10.2024].
8. Babayev E. Bakı Dövlət Universiteti – 105 / Azərtac, 31 avqust 2024. - https://azertag.az/xeber/baki_dovlet_universiteti___105-3157714 [baxılmışdır: 13.10.2024].

**ИГБАЛ АГАЕВ**
*К.и.н., доцент, Заведующий кафедрой история стран Азии и Африки,*
*Бакинский Государственный Университет*

## КРАТКАЯ ИСТОРИЯ КАФЕДРЫ «ИСТОРИЯ СТРАН АЗИИ И АФРИКИ»

В статье представлена краткая история Бакинского государственного университета, Исторического факультета и кафедры «История стран Азии и Африки», находящейся в его составе. Основное внимание уделяется сложному и тернистому пути, пройденному кафедрой с момента ее основания до настоящего времени. Помимо этого, в статье приведены сведения о деятельности ученых, сыгравших ключевую роль в создании и формировании кафедры, а также рассматривается ее текущая научно-педагогическая деятельность.

*Ключевые слова:* Бакинский Государственный Университет, всеобщая история мусульманского Востока, история зависимых и колониальных стран, история народов Ближнего и Среднего Востока, история стран Азии и Африки.

**IQBAL AGHAYEV**
*Ph.d., Associated professor, head of the Department of the history of*
*Asian and African countries, Baku State Univercity*

## THE BRİEF HISTORY OF THE DEPARTMENT OF "HISTORY OF ASIAN AND AFRICAN COUNTRIES"

The article presents a brief history of Baku State University, the Faculty of History and the Department of History of Asian and African Countries, which is part of it.The main attention is paid to the complex and thorny path that the department has went since its foundation to the present day. In

addition, the article provides information about the activities of scholars who played a key role in the creation and formation of the department, as well as an overview of its current scientific and pedagogical activities.

*Keywords:* Baku State University, universal history of the Muslim East, history of dependent and colonial countries, history of the peoples of the Near and Middle East, history of the countries of Asia and Africa.

*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*